# Şuşanın yetirmələri – muğənnilər, xanəndələr

**Qarabag.com Şuşanın görkəmli yetirmələri haqqında materialların nəşrini davam edir və Azərbaycanın məşhur müğənnilərinin və xanəndələrinin siyahısını təqdim edir.**

| **№** | **Ad, Soyad** | **Yaşadığı illər** | **Tarixdəki iz** |
|---|---|---|---|
| **1.** | Qasım Abdullayev | 1873-1927 | “Zabul” muğamını xüsusilə yaxşı ifa etdiyinə görə tanınan Qasım Abdullayev xalq arasında “Zabul Qasım” adı ilə məşhurlaşmışdı. O, nəinki peşəkar müğənni idi, eyni zamanda opera artisti kimi də tanınırdı. Ömrünün son illərində Şuşanın musiqi məktəbində muğam dərsi deyirdi. |
| **2.** | İslam Abdullayev | 1876-1964 | İslam Abdullayev Azərbaycan musiqisi tarixində Segah muğamının və onun digər növlərinin ifası ilə tanınır – “Zabul-Segah”, “Mirzə Hüseyn Segahı”, “Orta Segah”, “Xaric Segah”. Bu segahların inanılmaz oxuduğu üçün ona Segah İslam təxəllüsü verilib. |
| **3.** | Əbülfət Əliyev | 1926-1990 | Müğənni bir çox muğam növündə ifa edirdi, o cümlədən Rast, Şur, Bayatı-Şiraz, Segah-zabul və s. |

| | | | |
|---|---|---|---|
| **4.** | Əhməd Ağdamski | 1884-1954 | Təxəllüsü: Əhməd Ağdamski, Azərbaycanın opera müğənnisi (lirik tenor), teatr və kino aktyorudur. XIX əsrin sonu XX əsrin əvvəllərində azərbaycanlı aktrisalar yox idi, buna görə də onların rollarını kişilər ifa edirdi , o cümlədən Əhməd Ağdamski, onun mülayim səsi, incə bədən quruluşu və boyunun uca olmaması ona qadın rollarını yaratmağa kömək edirdi. |
| **5.** | Məcid Behbudov | 1873-1945 | Məcid Behbudov “Mirzə Hüseyn segahı” “Şüştər”, “Çahargah” kimi muğamların ifaçısı olaraq tanınırdı. Bununla yanaşı o Qafqaz millətlərinin dillərində mahnılar ifa edirdi, Azərbaycan Opera Teatrının inkişafında fəal iştirak edirdi, 1910-cu illərdə yaranmış bir sıra muğam opera və operettalarda çıxış edirdi. |
| **6.** | Bülbülcan | 1841-1927 | Bülbülcan təxəllüsü ilə məşhurlaşan Əbdülbağı Əli oğlu Zülalov Azərbaycanın muğam məktəbinə böyük təsir göstərib. Onun mədəni irsi bir sıra görkəmli Azərbaycan müğənnilərini yetişdirib. |

| | | | |
|---|---|---|---|
| 7. | Hacı Hüsü | 1839-1898 | Kazımlı Hacı Hüsü Kərbəlayı Lütfəli oğlu – Azərbaycan musiqisinin vokal sənətinin ən görkəmli nümayəndələrindən biridir. Hacı Hüsü həmçinin muğamat nəzəriyyəsi üzrə mütəxəssis idi, bu janrın bir çox Cənub ölkələrindəki ifa etmə təcrübələrindən xəbərdar idi, eləcə də Azərbaycan muğamlarının xüsusiyyətlərindən. O, Qatar muğamının yaradıcısıdır. |
| 8. | Əli Zülalov | 1893-1963 | 1938-ci ildə Əbdül-Müslim Maqomayevin "Nərgiz" operasında Molla Mütəllim rolunun ifasına görə "Şərəf" Ordeni ilə təltif edilib. 1940-cı ildə Əli Zülalov Azərbaycan SSR-nin əməkdar artisti adına layiq görülüb. 1956-cı ildən M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının solisti idi. |
| 9. | Qəmbər Zülalov | 1895-1976 | 1926-1975-ci illərdə Qəmbər Zülalov Azərbaycan Opera teatrının solisti idi. Burada o Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarında müxtəlif partiyaları ifa edirdi. 26 aprel 1958-ci ilin 26 aprel tarixində opera sənətinin inkişafı üçün xidmətlərinə görə Azərbaycan SSR-nin əməkdar artisti adına layiq görülüb. |

| | | | |
|---|---|---|---|
| **10.** | Süräyya Qacar | 1910-1992 | Süräyya Sädräddin qızı Qacar – Azärbaycan vä sovet müğännisidir (mezzo-soprano. Süräyya Qacarın yaradıcılığında äsas yeri Azärbaycan milli mahnıları, muğamlar, hämçinin SSRİ xalqalrının mahnıları eläc dä sovet bästäkarlarının mahnıları tuturdu. İki "Şöhrät" Ordeni vä medallarla täıtif edilib. |
| **11.** | Cabbar Qaryağdıoğlu | 1861-1944 | Cabbar İsmayıl oğlu Qaryağdıoğlu häm xanändä häm dä xalq mahnıları elä cä öz bästäsinä aid mahnıları ifa edän bästäkar olaraq böyük şöhrät qazanmışdı, o, yeni mätnlär-täsniflärin müällifi idi. Cabbar Qaryağdıoğlu Qafqazdan känarda da tanınırdı. Xanändänin sänäti ilä Fyodor Şalyapin, Sergey Yesenin, Reynqold Qliyer  valeh olmuşdular. Böyük Sovet Ensiklopediyasında Qaryağdını böyük xanändä, Azärbaycan milli musiqisinin mütäxässisi adlandırırlar. |
| **12.** | Keçäçioğlu Mähämmäd | 1864-1940 | Keçäçioğlu Mähämmäd – Azärbaycan xanändä-müğännisi, Şuşa vokal muğam mäktäbinin nümayändäsidir. O, sadäcä özünämäxsus tärzdä "Nava", "Mahur", "Mani" xüsusilä dä "Bayati-Qacar" kimi klassik muğamları ifa edirdi. |

| | | | |
|---|---|---|---|
| **13.** | Məşədi Məmməd Fərzəliyev | 1872-1962 | Məşədi Məmməd Fərzəliyev güclü səs, geniş səs diapazonu ilə seçilirdi. O, böyük ustalıqla zərbi-muğamları ifa edirdi, xüsisilə də “Eyratı”, “Mansuriyyə”, “Qarabağ şikəstəsi” və s. Azərbaycan incəsəti tarixində xanəndə Məşədi Məmməd Fərzəliyev “Şüştər” muğamının möhtəşəm ifası ilə məşhurdur. |
| **14.** | Xan Şuşinski | 1901-1979 | Əsl adı – İsfəndiyar Aslan oğlu Cavanşirov, Xan Şuşinski təxəllüsü ilə çıxış edirdi. Xanəndənin öz sözlərinə görə, sənətdə püxtələşməsində Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski böyük rol oynayıblar. Güclü səsə və geniş səs diapazonuna malik Xan Şuşinski bütün muğamları məharətlə ifa edirdi, lakin heç kəs onun kimi Mahur-hindini ifa edə bilmirdi. Xan Segah muğamının bütün növlərini möhtəşəm ifa edirdi, və xüsusilə də “Qarabağ şikəstəsini”. |